

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 48 (22.959)

13 mart 2018-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 12-də ATƏT Parlament Assambleyasının sədri Georgi Tseretelinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycan ilə ATƏT Parlament Assambleyası arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirilib. Martın 13-də ATƏT Parlament Assambleyasının İpək Yoluna Dəstək Qrupunun ilk beynəlxalq sessiyasının Bakıda keçiriləcəyinin önəmi vurğulanıb.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunulub. Dövlətimizin başçısı qeyd edib ki, Ermənistanın Azərbaycana qarşı işğalına son qoyulmalı və bu münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır.

Görüşdə, eyni zamanda, Azərbaycanda qarşıdan gələn prezident seçkilərinə də toxunulub. Prezident İlham Əliyev bu seçkilərin ədalətli, şəffaf şəkildə keçiriləcəyinə və Azərbaycan xalqının iradəsini əks etdirəcəyinə əminliyini ifadə edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 12-də ölkəmizdə rəsmi səfərdə olan Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili ilə görüşüb.

## Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanlarında vakant vəzifələrin tutulması üçün test imtahanı keçirilib



Martın 12-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın Test Mərkəzində Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanlarında vakant vəzifələrin tutulması üçün 7 noyabr 2017-ci il tarixində elan olunmuş müsabiqənin test imtahanları keçirilib.

Müsabiqədə 9 vakant vəzifənin tutulması üçün sənəd təqdim etmiş 44 namizəddən 36-sı test imtahanında iştirak edib, onlardan 22 nəfəri keçid balını toplayaraq müsahibə mərhələsində iştirak etmək hüququ qazanıb.

İmtahan başlanmazdan əvvəl namizədlərə slayd vasitəsilə imtahan və test proqramından istifadə qaydaları haqqında məlumat verilib. İmtahanda namizədlərə qanunvericilik üzrə 80, məntiqi təfəkkürün yoxlanılması üzrə 20 sual olmaqla, ümumilikdə, 100 sual təqdim edilib. Sualları cavablandırmaq üçün onlara 3 saat vaxt verilib. Test imtahanında obyektivliyin və şəffaflığın tam təmin edilməsi məqsədilə imtahanın videoçəkilişi aparılıb. İmtahan bitdikdən dərhal sonra namizədlərə cavab kartı və test imtahanının nəticəsinə dair arayış təqdim olunub. Test imtahanında Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanının əməkdaşları müşahidəçi qismində iştirak ediblər.

Test imtahanlarının nəticələri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın rəsmi internet səhifəsində *(www.dqmk.nmr.az)* yerləşdirilib.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublikasında infrastrukturun yenilənməsi, müasir müəssisələrin, yeni iş yerlərinin yaradılması istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi uzunmüddətli və hərtərəfli inkişaf konsepsiyasının reallaşdırılmasına əsaslı töhfələr verib.*

## Bu ilin ilk ayında xarici ticarət əlaqələrində 21 milyon 659 min ABŞ dolları həcmində müsbət saldo əldə olunub

Ötən dövrdə sahibkarlığın inkişaf etdirilməsinə göstərilən dövlət qayğısı nəticəsində istehsal müəssisələrinin sayı artıb, yerli məhsulların növ və çeşidinin həcmi yüksələn xətt üzrə inkişaf edib. Ən əsası yerli istehsalın şaxələnməsi xarici ticarət əlaqələrinin genişlənməsinə şərait yaradıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən verilən məlumata görə, 2018-ci ilin yanvar ayında muxtar respublikada 26 milyon 144 min 600 ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınıb. İxracın dəyəri 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə artaraq 23 milyon 902 min 100 ABŞ dolları təşkil edib, 21 milyon 659 min 600 ABŞ dolları dəyərində müsbət saldo yaranıb.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikasının ixrac potensialının artmasında müasir texnologiyaya əsaslanan müəssisələrdə yerli xammaldan istifadə olunması ilə yüksəkkeyfiyyətli məhsul istehsalı mühüm rol oynayır. Naxçıvanlı sahibkarların xarici bazarlara çıxışının təmin edilməsində muxtar respublikada fəaliyyət göstərən şirkətlərə ixrac təşviqlərinin verilməsi, ixrac üçün onlara dəstək göstərilməsinin də mühüm rolu olub.

2018-ci ilin yanvar ayı ərzində xarici ticarət əməliyyatları nəticəsində əldə olunmuş 21 milyon 659 min ABŞ dolları həcmində müsbət saldo isə onu deməyə əsas verir ki, muxtar respublika iqtisadiyyatı ölkəmizin valyuta ehtiyatlarının artmasında və iqtisadi təhlükəsizliyimizin təmin olunmasında mühüm paya malikdir.

## İməciliklərdə yaşıllıqlara aqrotexniki qulluq göstərilib, yeni ağaclar əkilib

***İnsan sağlamlığında təbiət mühüm rola malikdir. Ona görə də muxtar respublikamızda ekoloji problemlərin həlli, ətraf mühitin qorunması, təbiətin zənginləşdirilməsi diqqət mərkəzində saxlanılır. Hər ilin yaz və payız iməciliklərində muxtar respublikanın idarə, müəssisə və təşkilatları, ictimaiyyət nümayəndələri fəallıq göstərməyi özlərinin vətəndaşlıq borcuna çeviriblər. Cari ildə də bu tədbirlər mütəşəkkilliklə davam etdirilir, meyvə bağlarına, yaşıllıq zolaqlarına, gülkarlıqlara aqrotexniki qulluq göstərilir, yeni yaşıllıqlar salınır, ağac və gül kolları əkilir. Son illərdə diyarımızda yaşıllıq sahələrinin həcminin dəfələrlə artması, yurdumuzun yaşıllıqlar məskəninə çevrilməsi məhz belə tədbirlərin nəticəsidir.***

Ötən həftə keçirilən iməciliklər də yüksək səviyyədə təşkil olunub. Naxçıvan şəhərinin sakinləri Naxçıvan-Sədərək magistral yolunun kənarındakı 4 hektarlıq ərazidə 2800 ədəd meyvə ağacı və 1000 ədəd üzüm tingi, çirkab sutəmizləyici qurğunun yaxınlığındakı 1,5 hektarlıq ərazidə 900 ədəd meyvə ağacı əkiblər.

Muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur rayonunun Ələkli kəndindəki 0,4 hektarlıq yeni salınmış bağda 200 ədəd meyvə, Püsyan kəndindəki 15 hektarlıq bağda bərpa məqsədilə 1300 ədəd meyvə, Püsyan-Xanlıqlar avtomobil yolunun kənarlarında 300 ədəd meşə ağacı əkilib, Ələkli kənd qəbiristanlığında təmizlik işləri görülüb.

Babək rayonunun ərazisində də qələbəlik müşahidə edilib. Rayon sakinləri muxtar respublikanın ekologiyasına öz töhfələrini verməyə çalışaraq Naxçıvan-Şahbuz-Batabat magistral yolunun Uzunoba kəndi hissəsindəki 2 hektarlıq bağda 1300 ədəd badam ağacı əkiblər.

Bağlar diyarı Ordubad rayonunda da iməciliklər mütəşəkkilliklə keçirilib, Naxçıvan-Ordubad magistral yolunun Düylün kəndi hissəsindəki 8 hektarlıq bağda 2500 ədəd meyvə ağacı, Ordubad şəhər qəbiristanlığında 15 ədəd meşə ağacı əkilib.

Culfa rayonunda keçirilən iməciliklərdə Əlincəqala ətrafında və Əlincəboyu kəndlərdə 200 ədəd meşə, ümumilikdə, 700 ədəd meyvə ağacı əkilib.

Naxçıvan-Sədərək magistral yolunun Kəngərli rayonundakı Qabıllı kəndi hissəsində 500, Qıvraq-Püsyan avtomobil yolunun kənarlarında isə 450 ədəd meyvə ağacı əkilib, həmin ərazidəki 20 hektarlıq bağda ağaclara aqrotexniki qulluq göstərilib.

Şahbuz rayonunun Sələsüz kəndindəki 0,5 hektarlıq yeni salınmış bağda 574 ədəd meyvə, Ayrınc kəndindəki 0,3 hektarlıq bağda bərpa məqsədilə 216 ədəd meyvə ağacı, Şahbuz şəhərinin girişindən mərkəzinə doğru yol kənarlarında 134 ədəd həmişəyaşıl ağac əkilib.



Sədərəklilər də iməcilikdə fəallıq göstəriblər. Belə ki, Naxçıvan-Sədərək magistral yolunun sol hissəsindəki 0,5 hektarlıq ərazidə 350 ədəd, Sədərək kəndində 2 nömrəli tam orta məktəbin həyətində, Qaraağac kəndində yol kənarlarında və Gömrük İdarəsinə ayrılmış ərazidə, ümumilikdə, 50 ədəd meyvə ağacı əkilib.

Həmin gün muxtar respublikamızın bütün bölgələrində ahıl vətəndaşların həyətlərində təmizlik, abadlıq işləri aparılıb.

*Muxtar respublikamızın ən böyük bölgələrindən biri olan Şərur rayonunda da aqrar sahənin inkişafı üçün hərtərəfli şərait var. Əhalinin 70 faizdən çoxunun kəndlərdə məskunlaşması, torpağın daimi iş yerinə çevrilməsi əkinçilikdə yüksək nəticələr qazanılmasına imkan verib. Torpaq mülkiyyətçilərinə göstərilən qayğının davamlı xarakter alması isə bu sahənin inkişafına marağı artıran başlıca amillərdən biridir.*

## Torpaq mülkiyyətçiləri kartof əkininə başlayıb

Hər il meliorasiya-irriqasiya tədbirləri həyata keçirilir, bu sahə ilə məşğul olanlara güzəştli kreditlər verilir, texnika ilə təchizat diqqət mərkəzində saxlanılır.



Torpaq mülkiyyətçiləri digər təsərrüfat sahələri ilə yanaşı, kartof və soğan məhsullarının əkilib-becərilməsində də zəngin təcrübəyə malikdirlər. Son illər bu gəlirli təsərrüfat sahələrinin inkişafına göstərilən qayğı yüksəkkeyfiyyətli məhsul istehsalına səbəb olub. Bu baxımdan ötən il də istisna deyil. Belə ki, bəhs olunan dövrdə rayonda 1064 hektar sahədə kartof, 140 hektar sahədə soğan əkini aparılıb. 16 min tona yaxın kartof, 2587 ton soğan məhsulu əldə edilib. Rayonda 10-a yaxın soyuducu anbarın olması bu məhsulların uzun müddət saxlanılmasına imkan verir.

Bərəkətli və məhsuldar torpaq sahələri olan bölgədə cari təsərrüfat ilinə uğurla başlanılıb. Sahələrdən yaxşı məhsul əldə etmək üçün torpaq mülkiyyətçiləri payız aylarından torpağı əkinə hazırlamağa başlayıblar. Torpağa üzvi və mineral gübrələr verərək şum aparıblar. İlin bol məhsulunun əsasını qoymaq üçün torpaq mülkiyyətçiləri əlverişli keçən hava şəraitindən istifadə edərək əkinə başlayıblar. Həyətyanı və pay torpaq sahələrinə kartof toxumu basdırılıb, soğan toxumu səpilib. Adıçəkilən əkinlər, əsasən, rayonun Aralıq, Ələkli, Cəlilkənd, Zeyvə, Düdəngə, Xanlıqlar, Sərxanlı kəndlərində aparılır.

Qeyd edək ki, son illərə qədər muxtar respublikada bu məhsula olan tələbat kənardan gətirməklə ödənilirdisə, hazırda tələbatın böyük hissəsi yerli istehsal hesabına təmin edilir.

**Xəbərlər şöbəsi**



***Ölkəmizdə güclü, peşəkar və yüksək döyüş qabiliyyətinə malik ordunun yaradılması, formalaşdırılması və inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün ulu öndərimizin əsasını qoyduğu ordu quruculuğu siyasətinin uğurla davam etdirilməsinin nəticəsidir ki, Azərbaycan Respublikası Silahlı Qüvvələri Cənubi Qafqaz regionunun liderinə, dünyanın isə qabaqcıl ordularından birinə çevrilib.***

***Heydər Əliyev adına Hərbi Lisey – 20***

# Gələcəyin peşəkar zabitlərini yetişdirən hərbi təhsil ocağı

Naxçıvan şəhərində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi Liseyin yaranması və keçdiyi inkişaf yolu da bu sahədə görülən işlərin tərkib hissəsi kimi mühüm əhəmiyyətə malikdir. Ümummilli lider Heydər Əliyevin 1998-ci il 13 mart tarixli Sərəncamı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı yaradıldı. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin “Heydər Əliyev adına Hərbi Liseyin yaradılması haqqında” 2004-cü il 27 fevral tarixli Sərəncamı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının bazasında müstəqil təhsil ocağı fəaliyyət göstərməyə başladı. Beləliklə də, görkəmli dövlət xadiminin xatirəsinin əbədiləşdirildiyi ilk ünvan onun doğma yurdunda yaratdığı hərbi lisey oldu.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev liseydə olarkən deyib: ***“Əziz kursantlar, Heydər Əliyev adına Hərbi Liseydə təhsil almaq həm böyük şərəf, həm də böyük məsuliyyətdir. Ulu öndər Heydər Əliyevin həyat və fəaliyyəti Azərbaycan xalqına həsr edilmişdir. Müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir. Heydər Əliyev siyasətini əbədi yaşatmalıyıq. Ölkəmizi onun qoyduğu yolla irəliyə aparmalıyıq. Əziz kursantlar, yaxşı oxuyun, hərb işini mükəmməl öyrənin, ölkəmizin inkişafında fəal iştirak edin”.***

Heydər Əliyev adına Hərbi Lisey 2004-cü ildən müstəqil fəaliyyət göstərərək ümummilli liderimizin adına layiq, nümunəvi təhsil müəssisəsi kimi Silahlı Qüvvələrimizin savadlı, bacarıqlı, ləyaqətli, vətənpərvər zabitlərlə təmin olunması yolunda inamlı addımlar atır. Ötən dövr ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə hərbi lisey mühüm təşkilatlanma və inkişaf yolu keçib, burada nümunəvi hərbi tədris sistemi, möhkəm maddi-texniki baza yaradılıb. Ali Məclisin Sədri hərbi təhsil ocağının fəaliyyətini yüksək qiymətləndirərək deyib: ***“Hər bir ölkənin müstəqilliyini və dövlətçiliyini təsdiq edən əsas amillərdən biri də onun ordusudur. Bu gün Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında ordu quruculuğu sahəsində ardıcıl tədbirlər görülür. Silahlı Qüvvələrimiz həm güclü maddi-texniki bazaya, həm də peşəkar və vətənpərvər şəxsi heyətə malikdir. Müasir dövrdə ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərin mühüm bir istiqamətini ixtisaslı kadrların yetişdirilməsi təşkil edir. O ordu güclüdür ki, onun sıralarında peşəkar zabit heyəti var. Zabit heyəti isə öz-özünə formalaşmır. Bu gün biz iftixar hissi ilə deyə bilərik ki, Silahlı Qüvvələrimiz üçün zabit korpusunun formalaşması işinə ulu öndərimizin adını daşıyan hərbi lisey də öz töhfəsini verir. Ötən dövrlərdə hərbi liseydə möhkəm maddi-texniki baza və nümunəvi hərbi tədris sistemi yaradılmışdır. Bu gün liseyin mindən çox məzunu Azərbaycan Respublikası Silahlı Qüvvələri sırasında zabit kimi xidmətlərini davam etdirirlər”.***

Vətəninə, dövlətinə və xalqına sədaqətli, vətənpərvər, tam orta təhsil üzrə yüksək biliklərə malik, fiziki cəhətdən sağlam və intizamlı gənclər yetişdirmək kimi məsuliyyətli vəzifənin öhdəsindən layiqincə gələn Heydər Əliyev adına Hərbi Liseyin tədris imkanları ötən illər ərzində xeyli genişləndirilib. Gələcəyin peşəkar zabitlərini yetişdirmək kimi şərəfli missiyanı üzərinə götürən liseydə 1 nəfər elmlər doktoru, 2 nəfər müxtəlif sahələr üzrə fəlsəfə doktoru, 1 nəfər Azərbaycan Respublikasının, 3 nəfər isə Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi, 2 nəfər “Tərəqqi” medalı, 2 nəfər isə “Rəşadətli əməyə görə” nişanı ilə təltif olunmuş müəllimlər uğurla fəaliyyət göstərirlər.

Burada kursantların məişəti, təhsili, sağlamlığı, fiziki tərbiyəsi üçün lazımi şərait yaradılıb. Liseydə geniş sinif otaqları, laboratoriyalar, hərbi kabinələr, linqafon və kompüter sinifləri, elmi, bədii, siyasi, hərbi və tarixi ədəbiyyatlarla, ensiklopedik nəşrlərlə təmin olunmuş zəngin kitabxana vardır. Hazırda elektron lövhələr və internetə çıxışı olan kompüterlər dərslərin interaktiv formada keçirilməsinə və hərbi liseyin muzey şəbəkəsinə qoşulmasına imkan verir, dəqiq elmlər və xarici dillər müasir metodlarla tədris olunur.

Liseydə Heydər Əliyev Muzeyi fəaliyyət göstərir. Burada ümummilli liderimizin ordu quruculuğu sahəsində həyata keçirdiyi tədbirlərdən bəhs edən kitablar, dahi şəxsiyyətin hərbi liseyə səfərlərini əks etdirən fotoşəkillər, ötən əsrin 90-cı illərində Naxçıvanda milli ordunun formalaşdırılması ilə bağlı qəbul olunmuş taleyüklü qərarların surətləri, həmin dövrə aid fotoşəkillər nümayiş etdirilir. Təbii ki, bütün bunlar da kursantların hərbi-vətənpərvərlik tərbiyəsində mühüm rol oynayır.

Hərbi təhsil ocağında gənclərin fiziki hazırlıqları diqqət mərkəzində saxlanılır. Burada müasir avadanlıqlarla təchiz olunmuş idman zalı, futbol meydançası mövcuddur. Kursantlar təşkil olunan idman yarışlarında, Naxçıvan şəhər və muxtar respublika səviyyəli müxtəlif idman



birinciliklərində həmişə ön sıralarda yer alıblar. Bundan əlavə, onlar bilik yarışlarında, bədii özfəaliyyət kollektivlərinin baxış müsabiqələrində, fənn olimpiadalarında fəal iştirak edərək nailiyyətlər qazanırlar. Ümumilikdə, respublika fənn olimpiadalarında 2015-2017-ci illər ərzində 1 qızıl, 1 gümüş, 5 bürünc medal qazanılıb. Kursantların meyil və maraqlarını, bədii və texniki yaradıcılıq istedadlarını üzə çıxararaq inkişaf etdirmək məqsədilə təhsil, idman, mədəni sahələr üzrə liseydə 31 adda dərnək fəaliyyət göstərir.

Hərbi liseyin zabit-müəllim kollektivi və kursantları Naxçıvan Muxtar Respublikasının ictimai həyatında fəal iştirak edirlər. Ötən il oktyabrın 18-də – Dövlət Müstəqilliyi Günündə Naxçıvanda ilk milli hərbi hissənin yaradılmasının 25 illiyi münasibətilə keçirilmiş hərbi paradda Heydər Əliyev adına Hərbi Liseyin zabit və kursantları da iştirak edərək, tribuna önündən təntənəli keçid ediblər. Həmçinin kursantların dünyagörüşünün, mədəni-maarif tərbiyəsinin gücləndirilməsi üçün müxtəlif mövzularda tematik gecələr keçirilir, tarixi-mədəni yerlərə, muzeylərə gəzintilər təşkil olunur.

Hərbi təhsil ocağında atəş hazırlığı sinfi kursantların silahla davranış qaydalarını, hədəfi ilk atəşlə məhv etməyi öyrənmələri baxımından mühüm əhəmiyyətə malikdir. Burada müasir avadanlıqlar, kompüterlər və atış monitorları quraşdırılıb. Monitorlarda real şəraitə uyğun olaraq hədəflərin yaxın və uzaqlığını, müxtəlif hava, məhdud görmə və relyef şəraitini, eləcə də avtomatik və tək-tək atəş rejimini seçmək mümkündür. Atış başa çatdıqdan sonra nəticələr monitorda əks olunur və kursantların nişanalma bacarıqları haqqında məlumat verilir.

Rahat yataq dəstləri ilə təmin edilən yataqxana binasında kursantlar üçün müasir məişət şəraiti yaradılıb. Onların asudə vaxtlarının səmərəli təşkili məqsədilə istirahət zalında təbiət və idman guşələri mövcuddur. Kursantlar gündəlik mətbuatı izləmək, şahmat və digər idman növləri ilə məşğul olmaq imkanlarına malikdirlər.

Kursantların sağlamlığı və qidalanması həmişə diqqət mərkəzində saxlanılır. Hərbi liseyin tibb məntəqəsində şəxsi heyətin sağlamlığı hərbi həkim heyəti tərəfindən tez-tez yoxlanılır, qabaqlayıcı tədbirlər görülür. Həmçinin liseydə hamam-camaşırxana, çay evi, bərbərxana da var. Heydər Əliyev adına Hərbi Liseydə kursantlar yemək saatlarında nizam-intizamla yeməkxanaya daxil olur, qida rasionunda nəzərdə tutulan yüksəkkalorili ərzaqlarla qidalanırlar.

Yaradılan şərait gənclərin hərb sənətinə marağını xeyli artırıb. 56 kursantla fəaliyyətə başlayan liseydə hazırda 600-ə yaxın kursant təhsil alır. Onlardan 168 nəfəri Azərbaycan Respublikasının digər bölgələrindən gəlib burada təhsil alan yeniyetmələrdir.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin gələcək zabitlərinin vətənpərvər, bilikli və sağlam bir gənc kimi yetişməsi üçün liseydə yaradılan müasir tədris və məişət şəraiti, bütövlükdə, Azərbaycan gəncliyinə və Azərbaycan Ordusuna göstərilən diqqətin ifadəsidir. Hər bir kursant Heydər Əliyev adına Hərbi Liseydə təhsil aldığına görə fəxr hissi ilə özünü əsl Vətən müdafiəçisi hesab edir. Bütün bunlar da liseyin təhsil sahəsində qazandığı uğurlardan, əldə etdiyi nailiyyətlərdən xəbər verir. Hərbi liseyin kursantları Naxçıvan torpağının yetirmələri olan generalların layiqli davamçıları kimi yetişirlər.

Ötən dövr ərzində məzun olan 2 mindən çox kursantdan hərbi liseyi qızıl və gümüş medallarla, eləcə də fərqlənmə attestatı ilə bitirənlər də az deyil. Məzunlardan 10 nəfəri Türkiyə Respublikasının, 24 nəfəri Rusiya Federasiyasının Hərbi akademiyalarında, digərləri isə ölkəmizdə fəaliyyət göstərən müxtəlif təyinatlı ali hərbi məktəblərdə təhsillərini davam etdirirlər.



Heydər Əliyev adına Hərbi Liseydə əsas məqsəd gənclərimizi Vətənimizin müdafiəsinə hazırlamaq, onlara hərb işinə dair bilik və bacarıqları mənimsətməkdən ibarətdir. Torpaqlarımızın 20 faizinin işğal altında olduğu bir şəraitdə bu yöndə təbliğat işinin gücləndirilməsi vacib əhəmiyyət kəsb etdiyindən kursantlar hərbi liseyə daxil olan ilk gündən onlarda Vətənə məhəbbət hissinin gücləndirilməsi istiqamətində tədbirlər həyata keçirilir. Tədris prosesində kursantların vətənpərvərlik tərbiyəsinə üstünlük verilərək, onlara milli ruhun təlqin olunması, tariximizə, dilimizə, mədəni irsimizə, dövlət atributlarına hörmət və ehtiram hisslərinin aşılanması daim diqqət mərkəzindədir. Bu gün istər ali hərbi məktəblərdə təhsil alan, istərsə də Azərbaycan Silahlı Qüvvələrində xidmətlərini davam etdirən liseyin məzunları öz nizam-intizamları, vətənpərvərlikləri, bilik və bacarıqları ilə seçilirlər. Şanlı Aprel döyüşlərində, eləcə də ondan əvvəl və sonrakı dövrlərdə düşmən təxribatlarının qarşısını alarkən Heydər Əliyev adına Hərbi Liseyin məzunları da qarşı tərəfə layiqli cavab veriblər. Hərbi liseyin 8 məzunu Vətənimizin müdafiəsində şücaət göstərərək qəhrəmancasına şəhid olub.

*Ümummilli liderimiz Heydər Əliyevin* ***“Dünyada ən şərəfli peşə Vətəni, torpağı, dövləti qorumaq peşəsidir”*** *sözləri kursantların hərbi-vətənpərvərlik tərbiyəsində əsas istiqamətdir. Əcdadlarının şanlı hərb ənənələrini şərəflə davam etdirmək kimi düzgün hədəfə istiqamətlənərək gələcək nəsillərə örnək ola biləcək şərəfli zabit həyatı yaşamaq arzusu hər bir kursantın həyat amalına çevrilib.*

**Nəriman NƏCƏFOV**







## İranın Qərbi Azərbaycan Vilayətində istehsal edilən ərzaq məhsulları və əl işlərinin sərgi-satışı əhali tərəfindən maraqla qarşılanıb

### *Naxçıvan şəhərindəki Mərkəzi bazardan reportaj*

Müstəqillik qazandığımız illərdə muxtar respublikamız ölkəmizin digər zonalarına nümunə olacaq bir inkişaf yolu keçib. Bu inkişafın başlıca səbəblərindən biri sahibkarlıq fəaliyyətinə yaradılan münbit şərait, onlara göstərilən dəstək və qarşılıqlı ticarət əlaqələrinin genişləndirilməsidir. Artıq naxçıvanlı sahibkarların öz məhsullarını bir neçə ildir ki, xarici bazarlara çıxarmaları təmin edilir. Qarşılıqlı olaraq xarici ölkələrdən də muxtar respublikaya müxtəlif emal və istehsal məhsullarının gətirilməsi diqqətdə saxlanılır. Naxçıvan şəhərindəki Mərkəzi bazarda İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayətində istehsal edilən ərzaq məhsulları və əl işlərinin daha bir sərgi-satışının təşkil edilməsi də bunun ifadəsidir.

Qeyd edək ki, Qərbi Azərbaycan Vilayəti İran İslam Respublikasının inkişaf etmiş böyük bölgələrindəndir. Vilayətin mərkəzi qədim yaşayış məntəqələrindən biri olan Urmiya şəhəridir. Naxçıvan Muxtar Respublikası ilə Qərbi Azərbaycan Vilayəti arasında mövcud olan əlaqələr sırasında ticarət əlaqələri xüsusi yer tutur. 2011-ci ilin payızında Urmiya şəhərində 5 gün müddətində Naxçıvan Muxtar Respublikasının ilk ticarət və sənaye sərgisi təşkil edilib. Qərbi Azərbaycan Vilayətinin isə muxtar respublikada ilk ticarət və sənaye sərgisi 2015-ci ilin 14-17 avqust tarixlərində keçirilib. Naxçıvan Muxtar Respublikası ilə Qərbi Azərbaycan Vilayəti arasında əlaqələrin inkişafı baxımından mühüm əhəmiyyət daşıyan növbəti sərgi-satış naxçıvanlılar tərəfindən maraqla qarşılanıb. Cari ilin 8-11 mart tarixlərində isə daha bir sərgi-satış naxçıvanlılara təqdim olunub. Sərgidə 17 şirkət 37 növdə, 98 çeşiddə ərzaq və qeyri-ərzaq məhsulları ilə iştirak edib.



Sərgi-satışın son günü iranlı sahibkarlarla həmsöhbət olduq. Urmiya şəhərinin "Ofog Ticarət Vasegi Kooperativ Şirkəti" və "Elena Faxr" istehsal müəssisəsindən sərgi-satışa tomat, xurma, kişmiş və digər məhsullar gətirmiş Məryəm Azəri və həyat yoldaşı Məhəmməd Rza Vasiqi burada onlar üçün yaradılmış şəraitdən razılıqla danışdılar. Məryəm xanım bildirdi ki, beş ildir, sahibkarlıq fəaliyyəti ilə məşğuldur. Naxçıvana ikinci dəfədir gəlir. Burada yüksək alıcılıq mədəniyyəti görür. Naxçıvanlıların səmimiyyəti, qonaqpərvərliyi də diqqətindən yayınmayıb. Gətirdiyi malları satıb qurtarmaq üzrədir. Məhəmməd Rza Vasiqi isə deyir ki, sərgi-satış başa çatdıqdan sonra Qərbi Azərbaycan Vilayətinə Naxçıvanda istehsal olunan məhsullar aparacaqlar. Çünki həmin məhsullar öz keyfiyyəti ilə seçilir. Sonda hər iki müsahibim belə sərgi-satışların gələcəkdə də davam etdiriləcəyi arzusunda olduqlarını bildirdi, təşkilatçılara minnətdarlıqlarını ifadə etdi.

Sərgi-satışda "Nhtaş" şirkətinin məhsulları da həvəslə alınırdı. Şirkətin rəhbəri Poldəşt şəhərindən gələn Abbas Məhəmmədi ilə söhbət zamanı bildirdi ki, o, Naxçıvanda bir neçə dəfə olub. Naxçıvanlıların keyfiyyətli məhsula qiymət vermək bacarıqlarından danışan sahibkar dedi ki, burada yüksək təşkilatçılıq da sahibkarlara xoş təsir bağışlayıb. Bir neçə naxçıvanlı sahibkarla işbirliyi qurmaq barədə razılığa gəliblər. Arzu edirlər ki, gələcəkdə də belə sərgi-satışlar təşkil olunsun. Naxçıvanlıların istehsal etdikləri məhsullar Urmiyada, onların məhsulları isə Naxçıvanda satılsın, ticarət əlaqələri daha da genişləndirilsin.

Digər bir sahibkar Məcid Haqqı özünün meyvə bağlarında yetişdirdiyi meyvə-tərəvəz məhsulları ilə sərgi-satışda iştirak edib. Deyir ki, bundan sonra Naxçıvana tez-tez gələcək. O, burada olarkən Naxçıvanda sahibkarlığın inkişafına dövlətin xüsusi qayğı göstərdiyini görüb: "Naxçıvanlı sahibkarlar qürur duya bilərlər ki, dövlət onların fəaliyyətinə belə yüksək şərait yaradıb. Bu şəraitdə rəqabətyönümlü məhsul istehsal etmək heç də çətin deyil. Naxçıvan şəhərinin gözəlliyinə isə söz ola bilməz. Naxçıvanlılar öz şəhərlərini ürəkdən sevirlər ki, onu belə təmiz saxlayırlar".

Bukani şəhərinin "Sənaye Xatəm Bukani" əl işləri istehsalı müəssisəsinin rəhbəri deyir ki, metaldan düzəldilmiş məmulatlar, həmçinin hədiyyələr, çantalar, gətirib. Xüsusi zövqlə işlənmiş bu məmulatlara naxçıvanlıların böyük maraq göstərməsini təbii sayan sahibkar onu da vurğuladı ki, bir neçə gün ərzində naxçıvanlıların sənətə yüksək qiymət verdiklərinin şahidi olub.

Mərkəzi bazarda təşkil edilən sərgi-satışda alıcılarla da görüşdük. Naxçıvan şəhər sakini Elmira Həsənovanın dediklərindən: Bu günlərdə insanları düşündürən başlıca məsələ Novruz bayramını layiqincə keçirmək üçün zəruri olan məhsullar almaqdır. Düzdür, bu sahədə vaxtilə mövcud olan problemlər artıq aradan qaldırılıb, dükan-bazarlarımızda nə istəsən, tapmaq olar. Bununla yanaşı, dövlətimiz bayram süfrələrinin daha zəngin, daha rəngarəng olması üçün digər məqsədyönlü tədbirlər də həyata keçirir. Belə tədbirlərdən biri də qonşu İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayətində istehsal edilmiş ərzaq və sənaye məhsullarının Naxçıvan şəhərində sərgi-satışının təşkil edilməsidir. Bu, çox gözəl haldır.

Onu da bildirək ki, martın 3-dən 6-dək İran İslam Respublikasının Urmiya şəhərində də beynəlxalq sərgi keçirilib. Sərgidə Naxçıvan Muxtar Respublikasının iş adamları da iştirak ediblər. Hər iki ölkə sahibkarları üçün körpü rolunu oynayan və iqtisadi əlaqələrin genişlənməsinə xidmət edən sərgidə qida sənayesi məhsulları, dərman preparatları, yüngül sənaye, mebel və kənd təsərrüfatı məhsulları nümayiş etdirilib. Ümumilikdə, muxtar respublikada fəaliyyət göstərən 27 şirkətin 249 adda məhsulu və naxçıvanlı sənətkarlar tərəfindən hazırlanan 62 əl işi sərgiyə gələnlərin böyük marağına səbəb olub.

✍ **Ramiyyə ƏKBƏROVA**

## Ölkə başçısının sərəncamı heyvandarlığın inkişafında yeni mərhələnin başlanmasından xəbər verir

***Ölkəmizin ərzaq təhlükəsizliyinin təmin olunmasını iqtisadi strategiyanın əsas hədəflərindən biri hesab edən dövlətimiz aqrar sahədə istehsal imkanlarının daha da yaxşılaşdırılması üçün davamlı tədbirlər həyata keçirir. Xüsusilə ötən dövrdə bu sahədə qəbul edilmiş dövlət proqramları müasir dövrdə ərzaq təhlükəsizliyinin necə böyük önəmə malik olduğunu göstərir. Bu gün aqrar sahədə mühüm istiqamətlərdən birini də heyvandarlığın inkişafı təşkil edir.***



Ölkəmizdə, eləcə də muxtar respublikamızda heyvandarlığın daha da inkişaf etdirilməsi, bu sahədə damazlıq işinin keyfiyyətinin yüksəldilməsi və mövcud cins tərkibinin yaxşılaşdırılması istiqamətində mühüm işlər görülür. Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyini nəzərdə tutan mühüm tədbirlərin tərkib hissəsi kimi xarici ölkələrdən yüksək məhsuldar cins heyvanların alınıb gətirilməsi özünəməxsus rol oynayır. Gətirilən heyvanların südlük, südlük-ətlik və ətlik istiqamətli cinslərdən olması əhalinin ət və süd məhsullarına olan tələbatının ödənilməsində mühüm amil kimi qiymətləndirilir.

Qeyd etmək lazımdır ki, son illər muxtar respublikada heyvandarlıqla məşğul olan təsərrüfat subyektlərinə maliyyə dəstəyinin gücləndirilməsi, məhsuldar cins mal-qaranın alınıb gətirilməsi, süni mayalandırmanın tətbiqi, qarışıq yem istehsalı müəssisələrinin fəaliyyətə başlaması, təbii yem və otlaq sahələrinin su təminatının yaxşılaşdırılması, həmçinin qəbul olunmuş dövlət proqramlarında nəzərdə tutulan vəzifələrin icrası heyvandarlığın inkişafına öz müsbət təsirini göstərib. Statistikaya müraciət etsək, görərik ki, muxtar respublikamızda 2017-ci ildə 11 heyvandarlıq təsərrüfatı yaradılıb, ümumilikdə, bank və kredit təşkilatları tərəfindən bu sahəyə 1 milyon 750 min 300 manat məbləğində kredit verilib.

Eyni zamanda muxtar respublikada aztəminatlı ailələrin özünüməşğulluğunun təmin edilməsi, həmin ailələrə fərdi təsərrüfatlarını qurmaq üçün dövlət tərəfindən mal-qara verilməsi də heyvandarlığın inkişafında əhəmiyyətli addımlardan sayıla bilər. Ailə əməyinə əsaslanan fərdi təsərrüfatların yaradılması istiqamətində görülən tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə uzun müddət ünvanlı dövlət sosial yardımı alan və fərdi təsərrüfatlarını qurmaq üçün müraciət edən ailələrə kömək göstərilməsi məqsədilə 67 ailənin fərdi təsərrüfatlarının inkişafı üçün, ümumilikdə, 56 ailəyə yanında balası olan inək, 11 ailəyə isə xırdabuynuzlu heyvan verilib. Bu da ailələrin sosial vəziyyətlərinin yaxşılaşdırılmasına öz müsbət təsirini göstərib.

Heyvandarlığın inkişafı baytarlıq xidmətinin təşkilindən birbaşa asılıdır. Çünki lazımi baytarlıq xidmətini təşkil etmədən heyvandarlıqda yüksək məhsuldarlığa nail olmaq mümkün deyil. Bu baxımdan son dövrlərdə Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin maddi-texniki bazasının gücləndirilməsi, kənd yaşayış məntəqələrində baytarlıq xidmətinin təşkili dövlətimiz tərəfindən diqqət mərkəzində saxlanılır, baytarlar üçün lazımi iş şəraiti yaradılır. Təkcə 2017-ci ildə Dövlət Baytarlıq Xidmətinə 3 ədəd süni mayalandırma avadanlığı və xidməti minik avtomobili təqdim olunub. Yaradılmış şərait, təbii ki, müsbət nəticələrin qazanılmasına imkan verir. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin illik hesabatında qeyd olunur ki, 2017-ci ildə muxtar respublikada heyvandarlıq təsərrüfatlarında 9190 baş inək, düyə və camış süni yolla mayalandırılıb və bu dövr ərzində 5804 baş sağlam bala alınıb. 1 yanvar 2018-ci il tarixə muxtar respublikanın bütün təsərrüfat kateqoriyalarında iribuynuzluların sayı 112 min 371 baş, xırdabuynuzluların sayı isə 681 min 903 baş olub. Bu da 1 yanvar 2017-ci il tarixə olan göstəricilərdən müvafiq olaraq 1,4 və 1,5 faiz çoxdur. Yeri düşmüşkən, heyvandarlıqda baş sayının artması paralel olaraq məhsul istehsalının həcminə də öz təsirini göstərib. Belə ki, ötən il muxtar respublikada cəmi çəkidə 26331,7 ton ət, 82857,3 ton süd istehsal olunub. Bu da 2016-cı illə müqayisədə müvafiq olaraq 2,2 və 1,8 faiz çoxdur.

Heyvandarlığın inkişafında əsas məqsədlərdən biri, təbii ki, məhsuldarlığın yüksəldilməsidir. Müasir dövrdə isə bu tələbat süni mayalanma tədbirlərinin həyata keçirilməsi ilə ödənilir. Çünki süni mayalanma heyvanlarda baş sayının artırılması ilə yanaşı, cins tərkibinin yaxşılaşdırılmasında da mühüm rol oynayır. Məhz bu amil nəzərə alınaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 2018-ci il fevralın 22-də "Naxçıvan Muxtar Respublikasında heyvandarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam imzalanıb. Sərəncamın preambula hissəsində qeyd olunur: *"Ölkədə qeyri-neft sektorunun vacib tərkib hissəsi kimi aqrar sahənin inkişaf etdirilməsi prioritet istiqamətlərdəndir. Belə ki, əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair çoxşaxəli tədbirlər görülür, ərzaq və qida təhlükəsizliyinin birbaşa asılı olduğu aqrar sektorun inkişafına yönələn mühüm layihələr həyata keçirilir. Yeni qurulan və müasir avadanlıqla təchiz edilmiş infrastruktur, o cümlədən heyvanların cins tərkibinin yaxşılaşdırılması məqsədilə yaradılan süni mayalanma mərkəzləri heyvandarlığın inkişafında mühüm rol oynamaqdadır".*

Məhz bu sərəncamın icrasına uyğun olaraq, muxtar respublikada yeni Süni Mayalanma Mərkəzinin yaradılması regionda heyvandarlığın inkişafının keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına imkan verəcək. Qeyd edək ki, hazırda muxtar respublikada 23 süni mayalanma məntəqəsi fəaliyyət göstərir. Yeni yaradılacaq mərkəz isə bu sahədə işlərin daha da təkmilləşdirilməsi, müvafiq məntəqələrdə həyata keçiriləcək tədbirlərin bir mərkəzdən koordinasiyasını təşkil etmək baxımından xüsusi rol oynayacaq. Nəticədə, heyvanların cins tərkibinin yaxşılaşdırılması prosesi daha sürətlə aparılacaq ki, bu da heyvandarlıq məhsullarının artımında özünü göstərəcək. Reallaşdırılacaq layihənin daha bir əhəmiyyəti ondadır ki, gələcəkdə muxtar respublikadan cins mal-qaranın diri çəkidə ixracı üçün də potensial baza formalaşacaq.

✍ **Səbuhi HƏSƏNOV**

*Son illərdə muxtar respublikada meyvə-tərəvəz istehsalına diqqət artırılıb, əhalini faraş tərəvəz və meyvə məhsulları ilə təmin etmək üçün bir sıra məqsədyönlü tədbirlər həyata keçirilib. Sahibkarlara göstərilən dövlət dəstəyi nəticəsində hazırda Naxçıvan şəhəri ərazisində və bölgələrimizdə müasir istixanalar yaradılıb, meyvə bağları salınıb, məhsul bolluğu təmin edilib.*

## Qayğı və zəhmət birləşəndə



Şərur rayonunun Çəmənli kənd sakini Abdulla Adıgözəlovun Çərçiboğan kəndi ərazisində yaratdığı "Arpaçay istixanaları" və ətrafında saldığı meyvə bağları da daxili bazara öz töhfələrini verir.

Bir hektar ərazidə yerləşən dörd istixanada pomidor, xiyar, badımcan, bibər yetişdirən torpaq mülkiyyətçisi deyir ki, 2013-cü ilin mart ayında istixana kompleksinin yaradılması üçün biznes-plan hazırlayıb Sahibkarlığa Kömək Fonduna təqdim edib və fonddan bu iş üçün ona 50 min manat güzəştli kredit ayrılıb. Ayrılan vəsait hesabına istixanaların yaradılması üçün lazımi avadanlıqlar Türkiyə Respublikasından və Bakı şəhərindən gətirilib. Qısa müddət ərzində istixanada məhsul yetişdirilməsi üçün lazımi işlər görülüb. Kompleksdə becərmə tədbirlərində üzvi gübrələrdən istifadə edilir. Bu da məhsuldarlığın təbii yolla artırılmasına, ekoloji təmiz məhsul istehsalına imkan verir.

İstixana kompleksinin və ətraf sahədə salınan meyvə bağlarının suya olan tələbatı yaxınlıqda yerləşən iki artezian quyusu vasitəsi ilə ödənilir. Suvarma damcı üsulu ilə aparılır.

Onu da bildirək ki, sahibkarın fəaliyyəti təkcə istixana kompleksi ilə bitmir. Torpaqdan, necə deyərlər, dördəlli yapışan Abdulla istixanaların ətrafında 3 hektar ərazidə ərik, 3 hektarda heyva, 1 hektarda gavalı, 0,5 hektarda üzüm bağı salıb. Yaxın günlərdə isə istixana kompleksinin yaxınlığındakı 2 hektar torpaq sahəsində 3 min şaftalı tingi əkməyi nəzərdə tutub.

Sahibkarın dediyinə görə, ötən il bağlardan 1 ton heyva, 4 ton ərik, 1 ton üzüm, 6 tona yaxın gavalı yığılıb. Təsərrüfatda yetişdirilən tərəvəz və meyvələr Şərurla yanaşı, Naxçıvan şəhərində fəaliyyət göstərən bazarlara, kənd təsərrüfatı yarmarkalarına çıxarılıb. Ötən il təşkil olunan ailə təsərrüfatları festivalında Abdullanın istixana kompleksində və meyvə bağlarında yetişdirilmiş məhsullar da xeyli alıcı qüvvəsi toplayıb.

Söhbət zamanı öyrəndik ki, muxtar respublikada sahibkarlığın inkişafına göstərilən qayğı istehsal sahələrinin genişləndirilməsinə imkan verib. Bu qayğıdan səmərəli istifadə edən Abdulla Adıgözəlov mövcud kompleksin genişləndirilməsi ilə məşğuldur. Bu isə torpağa, onun qüdrətinə inamın və bağlılığın, bu qiymətli sərvətdən istifadəyə yaradılan şəraitin ifadəsidir.

✍ **R. ƏKBƏROVA**

## Milli Teatr Günü qeyd olunub




***Martın 10-da Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Milli Teatr Günü münasibətilə tədbir keçirilib.***

Tədbirdə Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova çıxış edərək bildirib ki, bu gün qədim və zəngin tarixi yol keçmiş Azərbaycan milli teatrının yaranmasından 145 il ötür. Nazir bu münasibətlə tədbir iştirakçılarını və teatr xadimlərini təbrik edib.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasında teatrların fəaliyyətinə hərtərəfli dövlət qayğısı göstərilir. Son illər muxtar respublikada teatrların maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilib, teatr binaları yenidən qurulub və ya əsaslı təmir olunaraq istifadəyə verilib. Hazırda muxtar respublikada fəaliyyət göstərən C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı, M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı, Naxçıvan Dövlət Uşaq Teatrı, 5 xalq teatrı, Naxçıvan Dövlət Universitetinin Tələbə Teatr Studiyası tamaşaçıların mənəvi və estetik zövqlərinin formalaşmasında, onların asudə vaxtlarının mənalı təşkilində əhəmiyyətli rol oynayır.

Qeyd olunub ki, son illər ərzində Naxçıvanda fəaliyyət göstərən teatrların yaradıcılıq axtarışları, qastrol səfərləri genişlənib, kollektivlər milli dəyərlərimizin peşəkar təbliğatçısına çevriliblər. Teatrlarımız repertuar zənginliyini daim diqqət mərkəzində saxlayıb, klassik və çağdaş dramaturgiyamızın dəyərli nümunələrindən, dünya klassiklərinin əsərlərindən tamaşalar hazırlayıblar.

Bildirilib ki, Naxçıvan teatrı üçün ixtisaslı gənc aktyorların yetişdirilməsi məqsədilə də muxtar respublikada mühüm addımlar atılıb, Naxçıvan Dövlət Universitetində aktyorluq sənəti, Naxçıvan Musiqi Kollecində bədii yaradıcılıq işi ixtisasları yaradılıb.

Nazir çıxışının sonunda muxtar respublikada mədəniyyətin, xüsusilə də teatr sənətinin inkişafına göstərdiyi diqqət və qayğıya görə bütün tədbir iştirakçıları adından Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinə minnətdarlığını bildirib.

Tədbirin bədii hissəsində Azərbaycan peşəkar teatrının yaranma tarixini əks etdirən kompozisiya nümayiş etdirilib.

Böyük dramaturqumuz Hüseyn Cavidin Azərbaycan səhnəsinin ölməz tamaşalarından olan “İblis” mənzum faciəsinin final hissəsinin təqdimatı teatrsevərlər tərəfindən maraqla qarşılanıb.

Səhnəyə çıxan M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının, Naxçıvan Dövlət Uşaq Teatrının aktyorları müxtəlif tamaşalardan hissələr nümayiş etdiriblər.

Tədbirin sonunda Naxçıvan Dövlət Musiqili Dram Teatrının yeni səhnələşdirdiyi “Qılınc və qələm” tamaşasından bir parça teatrsevərlərə göstərilib.

**Əli RZAYEV**

*Xalq təqvimi*

## Yel çərşənbəsi

***Azərbaycanın qədim yaşayış məskəni olan Naxçıvan torpağında boz ayın çillə çıxarmanı əhatə edən çərşənbələri qədim dövrlərdən SU-TORPAQ-YEL-OD ardıcıllığı ilə qeyd olunur. Bu çərşənbələrin hər biri öz mərasim və ayinlərinin zənginliyi ilə seçilir. Təbii ki, ulu əcdadlarımız yaradılışın bu dörd ünsürünü özünün ilkin ibtidai düşüncə sistemindən keçirərək onu simvollaşdırmış, şifahi mətnlər, dastanlar yaratmışlar. “Yaradılış” dastanında da biz bu işarələri açıq-aydın müşahidə edirik.***



Türk dünyasında çərşənbələr öz sakral mahiyyətində təbiətin canlanması ardıcıllığını qoruyub saxlayır. Belə ki, öz sərt soyuğu ilə “asıb-kəsən” kiçik çillə başa çatandan sonra təbiətdə mülayimləşmə başlayır. Bu zaman ilk olaraq Su qızmağa, əriməyə başlayır. Bundan sonra Torpaq isinir. Torpağın isinməsindən sonra soyuq və isti havanın qarşılıqlı mübadiləsi prosesi baş verir. Təbiətdə coğrafi hadisələrdən də bizə bəlli olan soyuq və isti hava axınının yerdəyişməsindən Külək-Yel əmələ gəlir. Yəni yeni, isti hava axını – Külək havanı qızdırır. Ən sonda isə Günəşin hərarəti tamamilə hiss edilir. İnsanlar və təbiət, canlı və cansız bütün varlıqlar Odu – istini duyurlar.

Yuxarıda qeyd etdiyimiz ardıcıllıq uzun minilliklər boyu insanların həyatına, yaşayışına, öz güzəranlarını bu ardıcıllıq üzrə tənzimləmələrinə təsir etmişdir. İlkin dünyagörüşü zamanı məhz bu hadisələr ulu əcdadlarımızın inam, inanc sistemini də formalaşdırmışdır. Suya, Torpağa, Yelə, Oda inam meydana gəlmiş, bu ünsürlərin hər birinə aid müxtəlif ayinlər, mərasimlər təşkil olunmuş, beləliklə də, bu gün təmtəraqla qeyd etdiyimiz dörd çərşənbənin yaranmasına səbəb olmuşdur.

Xalq təqviminə uyğun olaraq boz ayın Yel çərşənbəsində və ya Külək çərşənbəsində küləklər əsməyə başlayır və gün ərzində bir neçə dəfə dəyişir. Bu dəyişikliklər havanın təmizlənməsi kimi qəbul edilir. Bu dövrdə əsən küləyə “vədə yeli” deyilir. “Vədə yeli, ağ yeldir”, – deyib atalarımız. Novruz bayramına 17 gün qalmış əsən küləyə “vədə yeli” deyilir. Bu isə Külək çərşənbəsinə təsadüf edir. Bu küləyin əsməsi təmizlik işlərinə başlamağın (bayram təmizliyi) vaxtını bildirir.

Bəzi tədqiqatçılar yazır ki, bu külək ilin müəyyən dövründə müntəzəm əsdiyindən “vədə küləyi” adını almışdır. Xalq arasında vədə yelinə həm də “ələyəz yeli”, “ağ yel” deyilir. Bir deyimə görə, “ələyəz yeli” qalxdısa, yaz gələr. Ələyəz yelinin hansı istiqamətə əsdiyi bilinməz. Buna uyğun olaraq Naxçıvanda sözü, fikri, əqidəsi bilinməyən adama “ələyəz yelidir, hərdən bir tərəfə əsir”, – deyirlər.

Digər bir deyimə görə, “vədə yeli” yazın yelidir. Elə ki, əsməyə başladı, ağacların oyanmasına, köçəri quşların gəlməsinə köməklik göstərir. Köçəri quşlar yazın ilk müjdəçiləri hesab edilir. Bu quşların gəlməsi ilə əsl yaz başlayır.

Boz ayın üçüncü çərşənbəsində əsən küləklər Novruzdan bir həftə sonra dayanmağa başlayır. Xalq arasında küləklə, yellə bağlı bir çox folklor nümunələri də mövcuddur. Xüsusilə “Yel baba”, hətta bəzi bölgələrdə “Yel nənə” ifadəsi də mərasimlərdə qarşımıza çıxır:

*Qonaq oldu Yel nənəm,*
*Şirin-şəkər dil nənəm.*
*Yel babam Oğanımdır,*
*Yel nənəm Uğanımdır.*
*Oğanım qismətimdir,*
*Uğanım ismətimdir.*
*Oğanım hərəkətdir,*
*Uğanım bərəkətdir.*

Yel çərşənbəsində keçirilən mərasimlərdə oxunan nəğmələr çoxdur. Onlardan biri də aşağıdakı kimidir:

*A Yel babam, Yel babam,*
*A gül babam, gül babam.*
*Əs hoyur-hoyur babam,*
*A Yel babam, əsə gəl,*
*El-obanı kəsə gəl.*
*Yel babam, Yel əs gətir,*
*Xeyir-xəbər səs gətir.*

Yellə bağlı xalqımız bir çox folklor nümunələri də söyləmişlər. Atalar sözlərində bu daha çox qarşımıza çıxır. “Yel aparan yelinkidir, yerdə qalan mənimki”, “Yel qayadan nə aparar?”, “Yelnən gələn selnən gedər”, “elnən gələn gülnən gedər”, “Yelin zarafatı qovmaqla başlar”, “Yelə verdiyin düşmənə qismət olar”, “Yelə qoşulan çox uzağa getməz!”

*Yel çərşənbəniz mübarək!*

**Elxan MƏMMƏDOV**
**filologiya üzrə fəlsəfə doktoru**

## Səhiyyə müəssisəsində hematransfuzioloji briqada yaradılıb

Ötən il Naxçıvan Muxtar Respublika Xəstəxanasında Qan bankının fəaliyyətə başlaması qan köçürülməsinə ehtiyacı olan xəstələrin müalicəsinə göstərilən tibbi xidmətin səmərəliliyini xeyli yüksəldib. Hazırda müxtəlif travma və yaralanmalar, mürəkkəb cərrahi əməliyyatlar və doğuşlar zamanı qanitirmələrdə, xroniki qanazlığında, qanın irsi və qazanılmış xəstəliklərində, onkoloji xəstəliklərdə, daxili orqanların – ürək, böyrək, mədə-bağırsaq, qaraciyər və digər müxtəlif xəstəliklərində Qan bankı tərəfindən tədarük olunan qandan və ya qandan hazırlanmış preparatlardan geniş istifadə olunur. Qandan belə geniş istifadə edilməsi ona olan tələbatı da artırır.

Struktur bölmələrində transfuzioloji yardımın vəziyyətinə nəzarət və rəhbərlik, müalicə-profilaktika müəssisəsində xəstələrə transfuzioloji yardımın təşkil edilməsindən və həyata keçirilməsi məqsədilə Naxçıvan Muxtar Respublika Xəstəxanasının nəzdində hematransfuzioloji briqada yaradılıb. Briqada muxtar respublikanın istənilən tibb müəssisəsində qan və onun komponentlərinə ehtiyacı olan ağır xəstələrə, həmçinin qanın laxtalanma sisteminin patologiyası olanlara yüksəkixtisaslı hematoloji, cərrahi, ginekoloji, travmatoloji tibbi yardım göstərir.

Yüksəkixtisaslı hematoloq, həkim-transfuzioloq, anestezioloq-reanimatoloq, həkim-laborant və iki nəfər peşəkar tibb bacısından ibarət olan briqada qan və qan komponentləri, təcili təxirəsalınmaz dərman vasitələri, həmçinin təcili yardım maşını ilə təmin olunub. Ağır xəstələrə yatdığı xəstəxanada yardım həyata keçirilir. Zərurət yarandıqda isə xəstə Naxçıvan Muxtar Respublika Xəstəxanasına köçürülür. Briqada öz xidmətini 24 saat ərzində həyata keçirir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*İdman*

## Boksçularımız beynəlxalq turnirdə 7 medal qazanıb



İran İslam Respublikasının Bukan və Miyanduab şəhərlərində boks üzrə 3 ölkənin (Azərbaycan, Türkiyə, İran İslam Respublikası) iştirakı ilə beynəlxalq turnir keçirilib. Turnirdə 4 komandanın heyətində, ümumilikdə, 80-ə yaxın dəri əlcək sahibi mübarizə aparıb.

Ölkəmizi bu turnirdə Naxçıvan Muxtar Respublikası idmançıları təmsil ediblər. Belə ki, yarışda iştirak edən yeddi dəri əlcək sahibimiz uğurlu nəticələri ilə diqqəti cəlb edib. Boksçularımızdan Nizami Novruzov (50 kiloqram), Kənan İbrahimov (57 kiloqram) və Yusif Əliyev (60 kiloqram) öz çəki dərəcələrində bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Digər dörd dəri əlcək sahibindən Cəbi İsayev (60 kiloqram), Arif Bayramov (64 kiloqram), Sərvər Abdullayev (75 kiloqram) və Zəfər Ağamalıyev (81 kiloqram) isə gümüş medal qazanıblar.

Sonda qalib idmançılarımız təşkilatçılar tərəfindən diplom və kubokla mükafatlandırılıblar.

## “Şahin” hərbi-idman oyunlarına start verilib



***Naxçıvan şəhər tam orta məktəblərinin komandaları arasında “Şahin” hərbi-idman oyununun Naxçıvan şəhər birinciliyi keçirilib.***

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi, Əlahiddə Ümumqoşun Ordu, Təhsil Şöbəsi və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən yarışda 13 tam orta məktəbin komandası mübarizə aparıb.

Hərbi-idman oyununda komandalar sıra hazırlığı, darağa patron doldurulması və boşaldılması, avtomatın sökülməsi və yığılması, tüfəngdən hədəfə atəş açmaq, fiziki hazırlıq, maneələrin dəf olunması, mülki müdafiə hazırlığı və qərargah çadırının qurulması mərhələləri üzrə öz qüvvələrini sınayıblar.

Yarışın yekun nəticəsinə əsasən 1 nömrəli tam orta məktəbin komandası bütün rəqiblərinə qalib gələrək birinci yerə layiq görülüb. 14 nömrəli tam orta məktəbin komandası ikinci, 15 və 3 nömrəli tam orta məktəblərin komandaları isə üçüncü olublar.

Sonda qalib komandalara təşkilatçılar tərəfindən diplom, fəxri fərman və kuboklar təqdim edilib.

II yerin qalibləri olan 1 və 14 nömrəli tam orta məktəblərin komandaları aprel ayında keçiriləcək muxtar respublika zona birinciliyində Naxçıvan şəhərini təmsil edəcəklər.

Qeyd edək ki, analoji tədbir Şərur rayonunda da keçirilib. Birincilikdə 16 məktəb komandasının tərkibində 224 şagird mübarizə aparıb. Yekun nəticələrə əsasən ilk üç pillədə Danyeri, Mahmudkənd və İbadulla kənd tam orta məktəblərinin komandaları qərarlaşıblar.

Qaliblərə təşkilatçılar tərəfindən kubok və diplomlar təqdim olunub.

**Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Naxçıvan şəhəri, Nizami küçəsi, bina 57, mənzil 50-də yaşamış Mirzəyeva Zəhra Zülfüqar qızının adına olan 6914 inventar nömrəli texniki pasport və 0022794 nömrəli reyestrdən çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhərinin Qaraçuq kəndində yaşamış Abbasov İsax Dilənçi oğlunun adına olan JN-22/A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Fatma Babayeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 213